Azərbaycan 34-cü İstanbul Kitab Fuarında

Bizim stend bu il də möhtəşəm idi

İstanbulun TÜYAP sərgi mərkəzində keçirilən 34-cü Beynəlxalq kitab sərgisində Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə qurulan Azərbaycan stendi hər il olduğu kimi bu il də möhtəşəm idi. Bir hissəsi Qız qalası, yerdə qalan hissəsi isə qala formasında qurulmuş stend beynəlxalq zalda ən seçilən stend idi. Azərbaycandan sərgiyə böyük nümayəndə heyəti getmişdi: Mədəniyyət və Turizm Nazirliyinin kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin müdiri Vaqif Bəhmənli, həmin şöbənin nəşriyyat sektorunun müdiri Aslan Cəfərov, nazirliyin İctimaiyyətlə əlaqələr və mətbuatla iş sektorunun müdiri İntiqam Hümbətov, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru Şəhla Qəmbərova, Milli kitabxananın, "Hədəf" və "Qələm" nəşriyyatının təmsilçiləri və s. nümayəndələr iştirak edirdi. Bundan başqa, Azərbaycan Yaradıcılıq Fondunun aparat rəhbəri Qismət Rüstəmov, Qafqaz Universitetinin müəllimi Ülvi Babasoy, kulis.az internet jurnalının baş redaktoru Qan Turalı, yazıçı Eyvaz Zeynalov və s. şəxslər də sərgiyə gəlmişdilər. "Qanun" nəşriyyatı isə müstəqil stenddə öz nəşrlərini nümayiş etdirirdi, nəşriyyatı sərgidə Şahbaz Xuduoğlu təmsil edirdi.

Əvvəlki illərə nisbətdə bu il İstanbul Kitab Fuarının beynəlxalq gücü zəif idi. 20-dən çox ölkə qatılan sərginin fəxri qonağı Rumıniya idi. Sərgi müddətində daha çox Türkiyənin "Can", "İletişim", "Yapı Kredi yayınları", "Kırmızı kedi", "Domingo", "İş bankası yayınları" daha fəal idilər. 32 min kvadrat metr ərazini əhatə edən sərgidə 600-dən çox nəşriyyat iştirak edirdi. İlk gün sərgiyə daxil olmaq üçün növbə tutanların ucu-bucağı görünmürdü.

Xatırladaq ki, bu il də ötən ildə olduğu kimi Azərbaycan stendi Fəxri qonaq olan stendin yaxınlığında və əsas qapıya yaxın idi. Azərbaycan stendini ziyarət edənlər sırasında İstanbul universitetlərində təhsil alan tələbələr, müxtəlif ali təhsil müəssisələrində çalışan azərbaycanlı müəllimlər, Azərbaycan ədəbiyyatı, tarixi və mədəniyyətini araşdıran türk alimləri və s. ziyarətçilər var idi.

Sərginin açılışı günü Azərbaycanın İstanbuldakı baş konsulluğunun iştirakı ilə Azərbaycan stendinin açılışı oldu. Açılış mərasimindən dərhal sonra "Hüseyn Cavid. Vətənə qayıdış" fotoalbomu və eyni adlı kitabın, eləcə də "Hüseyn Cavid. Əsərləri" (Türkiyə türkcəsində) nəşrinin təqdimat mərasimi keçirildi.

Tədbiri giriş sözü ilə açan Vaqif Bəhmənli Hüseyn Cavid yaradıcılığından, "Kaspi" qəzetinin şairin yaradıcılığına verdiyi önəmdən, habelə nəşrlərin əhəmiyyətindən və "Kaspi" Təhsil Şirkətinin çoxsaylı nəşrlərin Azərbaycan kitab mədəniyyətinin inkişafındakı rolundan danışdı. Daha sonra mən nəşrin üstünlükləri haqqında, fotoalbomda yer alan zəngin arxivdən, nəşrlərin ölkə mənbəşünaslığında oynadığı böyük roldan söhbət açdım. Sonda oxuculara nəşrlər hədiyyə edildi və xatirə fotoları çəkildi.

Stendimizdə Ümummilli Lider Heydər Əliyevin, eləcə də Prezident İlham Əliyevin həyat və fəaliyyətini əks etdirən nadir kitablar, həmçinin Heydər Əliyev Fondunun Azərbaycan həqiqətləri ilə bağlı 26 dildə işıq üzü görən nəşrləri, uşaqlar üçün maraqlı ədəbiyyatlar, ölkəmizin tarixi, mədəniyyəti, iqtisadiyyatı və turizm imkanlarını təbliğ edən kitab, jurnal və broşürlər, habelə "Kaspi" Təhsil şirkətinin nəşrləri göz oxşayırdı. Mədəniyyət və Turizm Nazirliyinə aid hissədə Prezident İlham Əliyevin Sərəncamına əsasən latın qrafikalı əlifba ilə çap olunan çoxsaylı nəşrlər, o cümlədən Azərbaycan Xalq Cümhuriyyəti, "Kitabi Dədə-Qorqud" ensiklopediyaları, yazıçı və şairlərimizin əsərləri, dünya ədəbiyyatından nümunələr təqdim edilirdi. AMEA-nın Mərkəzi Elmi Kitabxanasının Azərbaycanın görkəmli şəxsiyyətlərinə dair, həmçinin ölkəmizin tarixini, iqtisadiyyatını, memarlığını, müasir inkişafını və digər sahələri əhatə edən video-slaydları bölmədə qurulmuş monitorda nümayiş etdirilirdi.

"Kaspi" Şirkətlər Qrupuna aid hissədə bu qurumun himayəsi ilə İstanbulda nəşr olunan "Hüseyn Cavid. Əsərləri" kitabı, "Hüseyn Cavid. Vətənə qayıdış" məqalələr toplusu və eyni adlı fotoalbom, "Üç əsrin qəzeti" və "Haqqın var yaşamağa" kitabları, həmçinin "Kaspi"nin təsisçisi, filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyevanın Azərbaycan, türk və fars dillərində çap olunmuş "Arazbarı" və "Türkün gəlişi" kitabları sərginin diqqət çəkən nəşrlərindən idi. Bölmədə Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsi və AZƏRTAC-ın birgə layihəsi olan "20 Yanvar - Tariximizin qanlı və şanlı səhifəsi" kitabalbomu da sərgi ziyarətçilərinin böyük marağına səbəb olmuşdu. "Arazbarı" "Türkün gəlişi" və "20 Yanvar - Tariximizin qanlı və şanlı səhifəsi" kitabları hər üçü Türkiyə türkcəsində olduğuna görə türkiyəli oxucular onlara daha çox maraq göstərirdilər. Adı çəkilən kitablardan sərgi müddətində 400 nüsxə oxuculara və ziyarətçilərə pulsuz paylanıldı.

Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası isə sərgidə AMEA institutlarının elmi jurnallarını və Azərbaycan tarixi, mədəniyyəti, iqtisadiyyatı, memarlığı, mətbəxi və digər sahələri əhatə edən çoxsaylı kitabları təqdim edildi.

Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə "Hədəf nəşrləri" tərəfindən çap olunan "Azərbaycan ədiblərini dünyaya tanıdaq" iyirmicildliyi, Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyi ilə əlaqədar nəşr olunan və ilk dəfə sərgiyə çıxarılan beşcildlik, bundan başqa, Nizami Gəncəvinin, Nəsiminin, Yusif Vəzir Çəmənzəminlinin, İsa Muğannanın, Məmməd Səid Ordubadinin, Səməd Vurğunun və digər korifeylərimizin əsərləri də sərgilənirdi. "Qələm" nəşriyyatına aid çoxsaylı uşaq ədəbiyyatı da Azərbaycan stendinə olan marağı daha da artırırdı.

8 gün davam edən fuarın 5 günü beynəlxalq gün sayılır, yerdə qalan vaxt isə özəl nəşriyyatlar öz kitablarını satırlar. Hər gün müxtəlif salonlarda 20-30 tədbir, konfrans, təqdimat mərasimləri keçirilirdi və hər keçən gün sərgi ziyarətçilərinin sayı daha da artırdı.

Sərgidə nümayəndə heyəti ölkəmizi lazımınca təmsil etdi, sonda isə qalan kitablar Azərbaycanın İstanbuldakı Baş konsulluğunun kitabxanasına hədiyyə edildi.

Fərid Hüseyn



www.kaspi.az 14 noyabr 2015